Səh. 2 Nəsillərarası müharibə haqqında bədii-fəlsəfi esse – Azər Musaoğlu
Səh. 5 Bakı xatirələri: Naşükür adamlar – Esmira Ələkbərli
Səh. 5 "Kurtlar Vadisi" – Binəli İslamoğlu
Səh. 6 Borçalı türkmənlərinin tarixi– Cəlal Yadigarlı
Səh. 3 Dini və elmi biliklərin harmoniyası – Hacı Bəkiroğlu
Səh. 4 İMTAHANLARIN VAXTI AÇIQLANIB
Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN
2025-Cİ İL
№ 10 (227)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR APARILIB



Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Türkiyə xarici işlər nazirinin müavini Beris Ekinci ilə strateji əməkdaşlıq və regional sabitlik məsələlərini müzakirə edib.

Görüş Gürcüstan və Türkiyə XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu çərçivəsində baş tutub.

Görüş zamanı tərəflər arasında xüsusi dostluq və strateji tərəfdaşlıq münasibətləri yüksək qiymətləndirilib. Bildirilib ki, ölkələr arasında yüksək səviyyəli səfərlərin artması və bu ilin iyulunda Tbilisidə keçiriləcək Hökumətlərarası Birgə İqtisadi Komissiyanın sessiyası əməkdaşlığın möhkəmlənməsinə təkan verəcək.

Tərəflər xüsusilə Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli formatında əməkdaşlığın əhəmiyyətinə toxunublar. Qeyd olunub ki, bu format çərçivəsində həyata keçirilən strateji layihələr, o cümlədən “Orta Dəhliz” təşəbbüsü, regionun iqtisadi və nəqliyyat potensialının tam reallaşdırılması baxımından böyük əhəmiyyət daşıyır.

Müzakirə zamanı regionda təhlükəsizlik mühiti və regionun davamlı və sabit inkişafı üçün Gürcüstan və Türkiyə arasında əməkdaşlığın əhəmiyyətinə toxunulub. Gürcü nazir Cənubi Qafqaz regionunda sülhün bərqərar olmasının vacibliyini vurğulayıb və bu prosesə töhfə verməyə hazır olduqlarını bildirib.

## GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRLİYİ YAXIN ŞƏRQDƏKİ VƏZİYYƏTLƏ BAĞLI BƏYANAT YAYIB




Gürcüstan Xarici İşlər Nazirliyi Yaxın Şərqdəki vəziyyətlə bağlı bəyanat yayıb.

Bəyanatda Yaxın Şərqdə baş verənlərdən narahatlıq ifadə olunur və münaqişənin həllində diplomatiyanın vacibliyi vurğulanır.

Bəyanatda deyilir: “İyunun 13-nə keçən gecə İsrail Müdafiə Qüvvələri (IDF) irimiqyaslı əməliyyata başlayıb. Bu əməliyyatda Hərbi Hava Qüvvələri hərbi obyektlərə və İranın nüvə proqramının obyektlərinə zərbələr endirir.

Biz Yaxın Şərqdə regional təhlükəsizliyə təhdid yaradan gərginliyin artmasından dərin narahatıq. Biz vəziyyətin deeskalasiyası və sabitliyin təmin edilməsi üçün diplomatik səylərin vacibliyini vurğulayırıq”.

## GÜRCÜSTAN ABŞ-YƏ YENİ SƏFİR TƏYİN EDİB



Tamar Taliaşvili Gürcüstanın ABŞ-dakı yeni səfiri təyin olunub. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bu münasibətlə Tamar Taliaşvilini təbrik edib.

O bildirib ki, Taliaşvilinin namizədliyinə ABŞ Prezident Administrasiyasının razılıq verməsi iki ölkə arasında münasibətlərin yenidən qurulacağına dair nikbinlik yaradır.

“İlk növbədə, Tamar Taliaşvilini ABŞ-də səfir təyin olunması münasibətilə təbrik etmək istəyirəm. Yəqin xatırlayırsınız, o, parlamentdə həmkarımız olub, burada uğurlu fəaliyyət göstərib. Bundan əvvəl Sakrebuloda, daha sonra isə Avropa Şurasında səmərəli işləyib. Onun səfir təyinatına ABŞ Prezident Administrasiyasının razılıq verməsi çox vacibdir”, – deyə parlament sədri qeyd edib.



Ş.Papuaşvili əlavə edib ki, bu hadisə Gürcüstanla ABŞ arasında uzun müddətdir müzakirə edilən və milli maraqlara əsaslanan strateji tərəfdaşlığın inkişafı üçün yeni imkanlar yaradır.

“Biz bu əməkdaşlığın yenidən qurulmasına ümid edirik və Tamar Taliaşvilinin ABŞ-də səfir kimi təmsil olunması bu baxımdan çox uyğun seçimdir”, – deyə spiker bildirib.

***Xatırladaq ki, iyunun 5-də ABŞ-nin Gürcüstandakı səfirliyi səfir Robin Danniqanın vəzifəsindən istefa verdiyi haqqında məlumat yayıb.***

***Məlumatda bildirilib ki, diplomatın vəzifəsindən getməsi şəxsi qərarıdır və ABŞ administrasiyasının müraciəti ilə deyil.***

***Danniqanın səfirliyin sosial şəbəkə hesabında dərc edilmiş bəyanatında onun 33 illik diplomatik fəaliyyətdən sonra təqaüdə çıxmaq qərarına gəldiyi qeyd edilib.***



# NƏSİLLƏRARASI MÜHARİBƏ HAQQINDA BƏDİİ-FƏLSƏFİ ESSE

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

İnsan yaşlaşdıqca bəzən özünün də xəbəri olmadan zövqündə, geyimində, hətta fikirlərində, mövqeyində dəyişiklik baş verir. Uğrunda mübarizə apardığı ideallar dəyişir. Hətta bəzən qanının coşan vaxtlarında etdiyi çılğınlıqlar, dirənişlər, inadlar ona gülməli, ağılsızlıq kimi görsənir. Bütləşdirdiyi insanlara (yazıçılara, şairlərə, filosoflara, alimlərə, inqilabçılara və s.) tapınmağı, inanmağı, pənah aparmağı ərəblərin cəhalət dövründəki inamlarını xatırladır, onlara qarşı münasibəti dəyişir. Fikirləri, baxışları ilə razılaşmadığı yaşlı nəsillə fikirlərinin, baxışlarının get-gedə üst-üstə düşdüyünü anlayanda yaşlandığını dərk etməyə başlayır. Düzdür, ağıl yaşda deyil, başdadır deyənlər də bu uzun yolu keçərək belə qənaətə gəliblər. Amma təhsilindən, savadından, istedadından asılı olmayaraq bütün insanların ümumi bir yaşlanaraq kamilləşmək dövrü vardır və bu dövr məhz yaşda – ağıl yaşında yox, ahıl yaşında baş verir. Yəni bu yaşlanmaq dövründə savadlı da, savadsız da yazılmamış qanunların maddələrinə istər-istəməz, instinktiv olaraq əməl etməyə başlayır.

Atalar və oğullar arasındakı dava oğullar atalara çevriləndə bitir əslində, bitir və yenidən başlayır. İndi ata olmuş oğullar öz oğulları ilə, öz gəncllikləri ilə, öz keçmişləri ilə davanı davam etdirirlər. İndi ata olmuş oğullar vaxtilə onlara deyilənləri – nəsihətləri, məsləhətləri, səhvləri, düzləri... öz oğullarına təkrar edirlər. Və bu müharibə Adəmlə oğlanlarından son ata-oğula kimi beləcə davam edəcək – dəyişməz bir kanon kimi. İnsan istəsə də bu kanonu dəyişə bilməz, nəsillər arasında gedən bu müharibəyə son qoymaq, hər iki tərəfi barışdırmaq, sülh sazişi bağlamaq yalnız hər iki nəsildən birinin məhv olması, yox olması ilə mümkündür ki, bu da təbiiliyə heç cür sığmır, utopiyadır.

Əslində, oğulun ata olması üçün, insanın yaşlaşması üçün nəsillərarası bu müharibə qaçılmazdır, təbiidir, hətta labüddür. Axı insan tanımadığını həmişə inkar edib. Oğul ata olmamış atalıq onun üçün həqiqət ola bilməz və öz həqiqətindən başqa həqiqətlərə şübhəylə yanaşar, inkar edər, mübarizə aparar... Axı indi atalar olan nəsil də bir zaman oğullar nəsli idi, onlar da öz ataları ilə yola getmirdilər, indi bir zamanlar atalarının onlara elədiklərini öz oğullarına edirlər. Deməli, bu dairə qırılmamalıdır, nəsillərarası bu münaqişə, əslində, xaos deyil, nizamdır. Nəsillərarası bu müharibəni, münaqişəni, davanı dayandırmamalıyıq, əksinə, onu daha da qızışdırmalıyıq, məişət səviyyəsindən intellektual səviyyəyə yüksəltməliyik, fərdi səviyyədən ictimai, hətta deyərdim milli səviyyəyə yüksəltməliyik (bəzi millətlərdə bu müharibə çoxdan intellektual səviyyədədir) ki, müharibənin gedişini yaxşı istiqamətdə dəyişsin, nəticə ürəkaçan olsun, tənəzzülə yox, inkişafa səbəb olsun. Nəsillərarası müharibədə eyni vaxtda udan da, uduzan da hər iki tərəf olur. Ona görə də bu müharibə, münaqişə, dava məişət meydanından çıxarılıb, intellekt, ağıl, rasional meydanda aparılmalıdır. Belə olduqda hər iki cəbhənin əsgərləri bu davadan qalib çıxacaqlar.

Təəssüf ki, bizdə atalar və oğullar arasındakı dava məişət səviyyəsindədir, məişət davasıdır. Və bu davada atalarımız oğullarına ən pis halda ev-eşik, ən yaxşı halda var-dövlət, vəzifə ötürürlər. Elə çox vaxt da bu davanın səbəbi mal-mülk olur, niyyətlər əmələ çevrilir, mənzilinə istiqamətlənmiş niyyət daşınmaz əmlak davasında qan tökür. Və bu "dəyərlər" dəyişməyənə qədər bu dairə sonsuza qədər belə davam edəcəkdir...

Ümumiyyətlə, nə maddidirsə fanidir, itirilmək qorxusu var. Bizim atalar və oğullar davasının katalizatoru da məhz bu qorxudur. Üstəgəl bu qorxuya şərik olanlar varsa faciə daha geniş miqyas alır. Qabil təkcə Adəmlə deyil, eyni zamanda qorxusuna şərik olan qardaşı Habillə də mübarizə aparmalı olur. Və bəlkə də "şərik yaxşı olsaydı, Tanrı özü üçün tutardı" fikri də ilk dəfə elə qardaşını öldürməmişdən qabaq Qabilin beynindən keçib. Bizim məişət səviyyəsində olan atalar və oğullar davamızın içində oğullar və oğullar davası da gedir. Buna görə də, bəlkə dünyada bizdən çox parçalanan, bizdən çox fərqli ideologiyalar uğrunda döyüşən, bizdən çox fərqli tanrılara tapınan ikinci bir millət yoxdur.

Bizim atalar və oğullar davamız məişət səviyyəsindən çıxıb intellektual səviyyədə aparılmayana qədər, dəyərlərimiz maddidən mənəviyə çevrilməyənə qədər, atalarımız oğullarına daşınmaz əmlak əvəzinə beyinlərdə daşınan əmlak – bilik, ağıl, elm miras qoymayana qədər bu soyuq müharibənin nəticəsi hər iki tərəfin də məğlubiyyəti, tənəzzülü, məhvi olacaqdır.

# ÇAYIN DİBİ DEYİL, MÜNASİBƏTİN DİBİ GÖRÜNDÜ



Biz Gürcüstan vətəndaşı olsaq da, ana dilimiz, kimliyimiz, mədəniyyətimiz Azərbaycanla bağlıdır. Uzun illərdir bu torpaqlarda yaşayan azərbaycanlılar olaraq Gürcüstan cəmiyyətinin ayrılmaz hissəsinə çevrilmişik. Lakin bütün bu vətəndaşlıq və cəmiyyətə bağlılıq hissi zaman-zaman qarşılıq tapmır. Hüquqi bərabərlik anlayışı rəsmi sənədlərdə yer alsa da, real həyatda belə deyil.

Son günlərdə baş verən hadisələr bu fərqli münasibətin yenidən müzakirə olunmasına səbəb oldu. Təxminən bir aydan artıq idi ki, milliyyətcə azərbaycanlı olan bir gənc tələbənin Kür çayına atıldığı xəbəri yayıldı. Bu xəbər xüsusilə azərbaycanlıların yaşadığı bölgələrdə ciddi narahatlıq yaratdı. Gəncin ailəsi və cəmiyyət təcili və effektiv reaksiya gözləsə də, hadisənin araşdırılması və axtarış prosesi olduqca passiv şəkildə həyata keçirilirdi.

İlk günlərdən axtarışlara cəmi bir neçə polis əməkdaşı cəlb olundu. Heç bir ciddi yanaşma olmadı. Çayın axınına müdaxilə edilmədi, suyun səviyyəsinin aşağı salınması yönündə heç bir addım atılmadı. Hadisənin ciddi olmasına baxmayaraq, məsələ sanki sadəcə "protokol naminə" araşdırıldı. Dövlətin bu passiv münasibəti isə biz azərbaycanlılarda "bizim həyatımızın heç bir dəyəri yoxdurmu?" sualını doğurdu.

Bu hadisənin üzərindən bir aydan artıq vaxt keçmişdi. Eyni Kür çayında başqa bir faciə baş verdi. Bu dəfə çaya bir avtomobil düşdü və içərisində olan şəxslər etnik gürcülər idilər. Hadisənin baş verdiyi andan etibarən dövlətin bütün xilasetmə qrupları tam səfərbər oldu. Suyun səviyyəsini azaltmaq üçün çayın axınına müdaxilə edildi. Dövlətin imkanları bir anda səfərbər olundu və bu da cəmiyyətdə haqlı olaraq müqayisələrə yol açdı.

Üstəlik, faciəvi və acı bir məqam yarandı. Avtomobilin çaya düşdüyü gün, aparılan xilasetmə əməliyyatları nəticəsində çayın səviyyəsi süni şəkildə azaldıldı. Məhz həmin gün bir ay əvvəl itkin düşən azərbaycanlı tələbə qızın cansız cəsədi tapıldı. Ailəsi isə günlərlə sadəcə bu müdaxiləni gözləmişdi. Əgər o avtomobil çaya düşməsəydi, çox güman ki, bəlkə də suyun səviyyəsi heç vaxt azaldılmayacaqdı.

Bu fakt təkcə təsadüf deyil, dövlətin kimə necə yanaşdığını açıq şəkildə ortaya qoyur. Bu iki hadisənin birində hərtərəfli səfərbərlik edilərkən, digərində səssizlik və passivlik var idi. Bu isə Gürcüstanda yaşayan azərbaycanlılara açıq bir mesaj verir: "Sənin həyatın o qədər də önəmli deyil". Bu hadisədən sonra çoxlarımız belə fikirləşirik. Bu, sadəcə laqeydlik deyil, ayrı-seçkiliyin real görünüşüdür.

Şübhəsiz ki, insan həyatı dəyərlidir, istər azərbaycanlı, istər gürcü, istərsə də başqa millətdən olan vətəndaş olsun. Əgər hər bir vətəndaş bərabər hüquqludursa, bəs biz bunu nə üçün real həyatda görmürük? Onda bizim bu hüquqlarımız sadəcə hüquq kitablarında yazılan sözlərdən ibarətdir. Qanunlarda yazılan "bərabərlik" ifadəsi kağız üzərində qaldıqca bu cür yanaşmaların sayı azalmayacaq. Bərabərlik hissi yalnız məhkəmə zallarında deyil, gündəlik həyatda, küçədə, məktəbdə, çay sahilində də hiss olunmalıdır...

Ədalət yalnız mühakimə zamanı deyil, həyatın hər sahəsində, hər anında tətbiq olunmalıdır. Çünki vətəndaşlıq sadəcə bir sənəd deyil, hüquq, hörmət və dəyər görməkdir. Eyni ölkədə vətəndaş hüquqları hamı üçün eyni deyilsə, bəs bu vətəndaşlıq kimindir? Məhz elə ona görə də çayın dibi deyil, münasibətin dibi göründü...

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 1-ci kurs tələbəsi*

# TƏNQİDDƏN QAÇIB TƏHQİRƏ TUTULMAQ



Statusundan və təhsil səviyyəsindən asılı olmayaraq biz azərbaycanlılarda bir xasiyyət var – başqasının qüsurunu görmək, onların hərəkətləri və düşüncələri haqqında fikir bildirmək. Bunlar savadlı şəxslər tərəfindən icra edildikdə analitik xüsusiyyət alır və tənqidə çevrilir.

Tənqid – bir fikir, hadisə, insan, sənət əsəri və ya ictimai proses haqqında dəyərləndirmə, təhlil və mübahisə yolu ilə güclü və zəif tərəflərin ortaya çıxarılmasıdır. Bir çoxları tərəfindən o, mənfi mənada, təhqir kimi qəbul edilsə də tənqid sadəcə qüsur axtarmaq deyil, əksinə, bir şeyi daha dərindən anlamaq, dəyərini qiymətləndirmək və inkişaf yollarını göstərmək üçün aparılan düşünülmüş bir fəaliyyətdir. Təəssüf ki, bizim cəmiyyətdə tənqid çox zaman şəxsi hücum, qərəzli yanaşma və ya qaralama kimi anlaşılır. Çoxları tənqidlə təhqir arasındakı fərqi başa düşmürlər. Onlar anlamırlar ki, tənqid arqumentlərə əsaslanır, məqsədi isə insanı və cəmiyyəti inkişaf etdirməkdir. Təhqir isə emosiyaya əsaslanan və qarşı tərəfi alçaltmağa yönəlmiş davranışdır. Fridrix Nitsşe deyir: "Əgər tənqid olmadan yaşayırsansa, demək ki, heç bir zaman ciddi qəbul edilməmisən".

Əgər Nitsşenin bu sözünü bu yazıda özümüzə rəhbər tutsaq, bu qərara gəlmək olar ki, "Yeni Yol" qəzetinin yazarları, əsasən də gənclər ciddi qəbul edilmirik. Bunu anlamaq isə elə də çətin deyil. Yazılarımızı paylaşanda çox vaxt təriflə qarşılaşırıq. Şərhlərdə hamı uğurlar arzulayır, xoş sözlər yazır. Bu sözlər, əslində, tənqid əvəzinə deyilmiş, səthi təsdiqlər və gözboyamalardır. Əslində, onlar heç məqaləni belə oxumurlar.

Bəzən isə tam əksi baş verir, yazdıqlarımıza heç bir reaksiya gəlmir. Nə tənqid, nə də tərif. Bu isə laqeydliyin və maraq çatışmazlığının əlamətidir, hansı ki, səthi təsdiqdən daha təhlükəlidir. Çünki tənqid olunan fikir yaşayır, müzakirə edilir və formalaşır. Amma cavabsız fikir zamanla unudulur.

Bəzən elə düşünürəm ki, çoxları fikirlərimizi və narahatlıqlarımızı "gənclik həyəcanı" kimi ötəri qəbul edirlər. Halbuki o "həyəcan" dəyişimin, yeniliyin və yaratma enerjisinin əsas başlanğıcı ola bilər. Bu enerjinin boşa çıxmaması üçünsə bizim ehtiyacımız olan şey eşidilmək, dəyərləndirilmək və sorğulanmaqdır. Təəssüf ki, bunu edən olnadığından əlac qalır öz aramızda bir-birimizi tənqid etməyə. Elə məhz buna görə də bu yazımın tənqid obiyekti "Yeni Yol" qəzetinin gənc yazarlarından olan Aytən Fətullayevadır. Biz onunla 3-cü sinifdən bir-birimizi tanıyırıq və onun emosional və hisslərini açıq şəkildə ifadə edən biri olduğunu uzun illərdir müşahidə edirəm, bu cəhətlər onun yazı üslubunda da özünü göstərir. Onun yazdığı məqalələrin demək olar ki, 90 %-ində emosionallıq və güclü romantizm öz əksini tapır. Aytənin yazılarında iç dünyasında baş verən emosional proseslər o qədər güclü şəkildə hiss olunur ki, oxuyanda bunun məqalənin əsas ideyasını kölgədə qoyduğunu və oxucuları əsas məsələni analiz etməkdən yayındırdığını düşünürəm. Məsələn, "Dəyişməyən ünvan" adlı məqaləsini götürək.

O, bu yazısında çərçivəsi rəngli çiçəklərlə bəzədilmiş xoşbəxt bir ailə tablosu yaradıb və ailəni "fırtınada liman", "buraxmayan əl", "əvəzolunmaz ünvan" kimi təqdim edib. Ona görə ailə insan həyatında dəyişməyən, ən dəyərli və müqəddəs bir varlıq, insanın sevgini, dəstəyi, anlayışı ilk dəfə yaşadığı, çətin və xoş günlərdə dayaq olan yeganə məkandır ki, bu fikirləri ilə tam razıyam. Lakin təəssüf ki, ailə yalnız xoşbəxtlikdən ibarət ideal və dəyişməz bir institut deyil. Ailə eyni zamanda zorakılığın, patriarxal basqının və psixoloji gərginliyin də məkanıdır. Bu gün cəmiyyətin qarşısında duran ən ciddi sosial problemlərdən biri olan məişət zorakılığı da ailə mühitində kök salır. Yəni ailə heç də hər zaman "əvəzolunmaz ünvan" deyil, bəzi insanlar üçün o, qaçmaq istədikləri ilk yerdir. Buna baxmayaraq, Aytən bu mövzulara heç toxunmayaraq yazını yuxarıdakı metaforalarla ailəni yalnız pozitiv təzahürlərlə təsvir edərək onu idealizə edib. Halbuki ailə institutunu bütünlüklə dəyərləndirmək üçün həm müsbət, həm də mənfi tərəfləri nəzərə almaq vacibdir.

Təbii ki, hər yazı bütün aspektləri əhatə edə bilməz. Amma jurnalistikanın və publisistikanın vəzifəsi təkcə xoş olanı göstərmək deyil, həm də görmək istəmədiyimiz reallıqları üzə çıxarmaqdır. Məhz bu reallıqları dilə gətirmək ailə kimi möhkəm və köklü institutların daha sağlam əsaslar üzərində qurulmasına yardımçı ola bilər.

Aytənin "Dəyişməyən ünvan" adlı yazısında emosional və nostalji dolu yanaşması bu strukturun isti və müsbət tərəflərini parlaq şəkildə təqdim edir. Onun bu emosional yanaşması oxucuya ümid vermək baxımından dəyərlidir, lakin publisistik obyektivlik tələb edir ki, bu ümidlə yanaşı, gerçəkliklər də göstərilsin, hadisələrin mənfi tərəfləri üzə çıxarılıb tənqid olunsun. Yalnız bu halda yazı həm hissə, həm düşüncəyə təsir edə bilər.

Bu tənqidin məqsədi Aytəni susdurmaq və ya emosional yazı stilini təkzib etmək deyil. Əksinə, məqsədim bu yazı tərzinin güclü emosional potensialı ilə yanaşı, onun analitik dərinliyini də inkişaf etdirməsidir. Çünki yaxşı bir yazı həm hisslərə, həm də ağıla təsir edə bilendir.

Aytənin yazı üslubundakı bu emosionallıq onun fərdi imzası ola bilər, lakin bu hisslər fikrin arxasında qalarsa, fikir gücsüzləşir. Reymond Çandlerin sözləri ilə desək, "Yalnız emosiyalarla yazılmış mətnlər qısa müddət təsir edir, dərin düşüncə ilə yazılmışlar isə yadda qalır".

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 1-ci kurs tələbəsi*

# DİNİ VƏ ELMİ BİLİKLƏRİN HARMONİYASI



Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Tarix boyu insan cəmiyyəti elm və dinin birlikdə inkişafı ilə irəliləmişdir. Din insanın ruhunu, elm isə düşüncəsini aydınlatmışdır. Lakin müasir dövrdə bəzən bu iki sahə bir çox insan tərəfindən bir-birinə qarşı qoyulur. Halbuki din və elm bir-birini inkar etmədən, əksinə, bir-birini tamamlayaraq insan həyatını daha mənalı və kamil edə bilər.

İslam dini elmin əhəmiyyətinə xüsusi diqqət yetirən bir dindir. Quran-i-Kərimin ilk nazil olan ayəsinin "İqra" – "Oxu!" əmri ilə başlaması təsadüfi deyildir. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s.) buyurur: "Alimlər peyğəmbərlərin varisləridir". Digər bir hədisində də deyir: "Elm öyrənmək hər bir müsəlmana vacibdir".

Bu ifadələr elmin islamda yüksək mövqedə olduğunu göstərir.

Tarixdə islam dünyası bir dövr "Elmin qızıl çağı"nı yaşamışdır. IX-XI əsrlərdə Bağdad şəhərində qurulan "Beytül-Hikmə" ("Hikmət evi") dünyanın ən böyük elmi mərkəzlərindən biri olmuşdur. İbn Sina tibbdə, Əl-Biruni astronomiyada, Əl-Fərabi fəlsəfə və riyaziyyatda dünya elminə böyük töhfələr vermişdir. Onlar dini dünyagörüşlərini qorumaqla bərabər, elmdə yenilikçi düşüncələri ilə cəmiyyətləri irəli aparmışlar.

Elm kainatın necə işlədiyini araşdırır, din isə bu kainatın niyə mövcud olduğunu izah edir. Elm vasitəsilə insan fiziki aləmi anlayır, din isə ona həyatın mənasını və dəyərləri aşılayır.

Məsələn, tibbin inkişafı insan ömrünü uzadır, texnologiyanın inkişafı gündəlik həyatı asanlaşdırır. İslam isə hər iki sahənin insanlığa xidmət etməsini təşviq edir. Quranda deyilir: "Allahın yaratdıqlarında düşünən bir qövm üçün nişanələr vardır" (Ali-İmran, 190).

Bu günkü cəmiyyətdə bəzən elmi biliklərdən istifadə edərək dini dəyərləri kiçiltmək, yaxud dini yanlış anlamaqla elmi inkar etmək halları görünür. Əslində isə, problem nə dində, nə də elmdədir. Problem insan faktorunda – yanlış təfsir və məqsədsiz istifadədədir.

Unutmayaq ki, elm və din insanı daha yaxşı bir varlıq halına gətirmək üçün vardır. Birində inkişaf, digərində isə tərbiyə və istiqamət vardır.

Bəs biz din ilə elm harmoniyasını əldə etmək üçün nə edə bilərik?

Təhsil sistemində elmi biliklərlə yanaşı, mənəvi və əxlaqi dəyərlərə də yer verilməlidir. Düzdür, bu gün cəmiyyətimizdə bu mümkünsüz görünür, ancaq o zaman biz də bu harmoniyanı əldə etmək üçün həm özümüz, həm də övladlarımız dini təhsil mərkəzlərinə, məscidlərə gedərək məlumat ala və ya dini ədəbiyyatdan istifadə edə bilərik.

Elmi araşdırmalar insanın və təbiətin hüquqlarına hörmət prinsipi üzərində qurulmalıdır. Din xadimləri elmi yenilikləri öyrənməli və cəmiyyətə müasir dillə izah etməlidirlər.

Bir BMT hesabatına görə, təhsilli cəmiyyətlərdə həm iqtisadi inkişaf, həm də sosial rifah səviyyəsi orta hesabla 30 % daha yüksəkdir. Bu da göstərir ki, elm və maarifləndirmə cəmiyyətlərin tərəqqisinin əsas dayaqlarıdır. Əgər bu təhsil dini-mənəvi dəyərlərlə də zənginləşdirilərsə daha balanslı və sağlam cəmiyyətlər formalaşar.

Sonda onu vurğulamaq istəyirəm ki, din və elm bir-birini inkar edən deyil, tamamlayan iki böyük gücdür. Hər ikisi insanın daha mükəmməl, daha məsuliyyətli və daha mənalı bir həyat yaşaması üçün zəruridir.

Ən sağlam cəmiyyətlər həm elmi tərəqqiyə açıq, həm də mənəvi dəyərlərə bağlı cəmiyyətlərdir. Bu harmoniyanı qorumaq, gələcək nəsillərə daha nurani bir dünya buraxmaq bizim hər birimizin məsuliyyətidir.

# MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 8-DƏN 23-NƏ KİMİ DAVAM EDƏCƏK

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin məlumatına görə, müəllimlər üçün imtahanlar iyulun 8-də başlayacaq və iyulun 23-də bitəcək. 2025-ci ilin fənn, xüsusi baş müəllim, baza peşə bacarıqları imtahanlarının keçiriləcəyi vaxtlar aşağıdakı kimidir:

**8 iyul – (birinci sessiya):**

Baza peşə bacarıqları imtahanı.

**9 iyul (birinci sessiya):**

Fizika (VII-XII);

Kimya (VII-XII);

Tarix (VII-XII);

Gürcü dili və ədəbiyyatı (VII-XII).

**9 iyul (ikinci sessiya):**

Biologiya (VII-XII).

**10 iyul (ikinci sessiya):**

Tətbiqi və təsviri incəsənət.

**11 iyul (birinci sessiya):**

Riyaziyyat (VII-XII).

**11 iyul (ikinci sessiya):**

Coğrafiya (VII-XII);

Vətəndaş təhsili.

**15 iyul (birinci sessiya):**

Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV);

Təbiətşünaslıq (I-VI);

Riyaziyyat (I-VI);

Gürcü dili və ədəbiyyatı (I-VI);

Azərbaycan dili;

Erməni dili.

**15 iyul (ikinci sessiya):**

Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);

Rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);

Erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər).

**16 iyul (birinci sessiya):**

Xüsusi baş müəllim imtahanı.

**17 iyul (birinci sessiya):**

İtalyan dili (I-XII) (yazı hissəsi);

Gürcü dili (qeyri-gürcüdilli məktəblər üçün) (yazı hissəsi);

Fransız dili (I-XII) (yazı hissəsi);

Alman dili (I-XII) (yazı hissəsi);

Rus dili (I-XII) (yazı hissəsi);

İngilis dili (I-XII) (yazı hissəsi).

**17 iyul (ikinci sessiya):**

İdman.

**18 iyul (birinci sessiya):**

Musiqi;

Kompüter texnologiyaları (yazı hissəsi).

**20 iyul (birinci və ikinci sessiya):**

Kompüter texnologiyaları (praktiki hissə).

**23 iyul (birinci, ikinci, üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci sessiya):**

Xarici dil və gürcü dili (qeyri-gürcüdilli məktəblər üçün) (danışıq hissəsi).

# VAHİD MİLLİ İMTAHANLAR İYULUN 3-DƏ BAŞLAYIR, 22-DƏ BİTİR



2025-ci ilin vahid milli imtahanları iyulun 3-də başlayır. Abituriyentlər ilk imtahanı gürcü dili və ədəbiyyatından verəcəklər. 22 iyulda vahid milli imtahanlar tətbiqi və təsviri incəsənət imtahanı ilə başa çatacaq. 10 iyulda tələbələrin qrant müsabiqəsi keçiriləcək. Magistraturaya namizədlər isə ümumi magistr imtahanını 21 və 22 iyulda verəcəklər.

İmtahan vaxtı və imtahan mərkəzinin ünvanı haqqında məlumat imtahan kartında qeyd olunacaq. İmtahanda iştirak edəcək şəxslər 20 iyundan etibarən öz qeydiyyat səhifələrindən imtahan kartlarını çap edə biləcəklər.

2025-ci ildə əvvəlki illərdə olduğu kimi, imtahan keçiriləcək mərkəzlər Tbilisi, Batumi, Zuqdidi, Kutaisi, Poti, Axaltsixe, Qori, Ozurgeti, Rustavi, Telavi, Xulo və Ambrolauridə olacaq.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz tezliklə imtahan mərkəzlərini lazımi inventarla təmin edəcəklərini bildirib.

Xatırladaq ki, 2025-ci il üzrə imtahanlarda iştirak etmək üçün təxminən 80 min nəfər qeydiyyatdan keçib.

# TƏHSİL NAZİRİ: İNKLÜZİV TƏHSİLİN YENİ İKİİLLİK PROQRAMI TƏSDİQLƏNƏCƏK



İyunun 9-da İnklüziv Təhsil İdarəsinin bərpası tələbi ilə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin binası qarşısında etiraz aksiyası keçirilib. Aksiyada fiziki imkanları məhdud şəxslər, onların ailə üzvləri və hüquq müdafiəçiləri iştirak ediblər. Buna cavab olaraq təhsil naziri Aleksandre Tsuladze jurnalistlərə açıqlamasında bildirib ki, İnklüziv Təhsil İdarəsinin Strateji Planlaşdırma İdarəsi ilə birləşdirilməsinin məqsədi strukturun optimizasiyasına, effektivliyinin artırılmasına xidmət göstərir.

Aleksandre Tsuladze onu da qeyd edib ki, məlumata əsasən, bir neçə günə inklüziv təhsilin yeni ikiillik fəaliyyət planı da təsdiqlənəcək.

***"Ucadan qeyd etmək istəyirəm ki, Gürcüstanda inklüziv təhsil heç bir təhlükə qarşısında deyil. Bizim nazirliyin struktur optimizasiyası məqsədilə həyata keçirdiyi bu dəyişikliklərlə yalnız və yalnız funksiyalar əvəz olunacaq. Layihələrin həyata keçirilməsi baxımından isə heç bir dəyişiklik olmayacaq. Bu gün inklüziv təhsil istiqamətində həyata keçirilən tədbirlər daha çox dəstəklə davam etdiriləcək",*** – deyə təhsil naziri bildirib.

Qeyd edək ki, Təhsil Nazirliyinin tərkibində olan İnklüziv Təhsil İdarəsi bundan sonra müstəqil struktur vahidi kimi fəaliyyət göstərməyəcək. İdarə Strateji Planlaşdırma İdarəsi ilə birləşdiriləcək.

# BİR İL ƏRZİNDƏ 108 MÜƏLLİM MENTOR STATUSU ALIB

Gürcüstanın 2024-cü il dövlət büdcəsinin müzakirəsi zamanı 12 ay ərzində 543 müəllimlə əlaqədar praktiki fəaliyyətin qiymətləndirilməsi həyata keçirilib.

Gürcüstan parlamentinə 2025-ci ilin may ayının sonunda daxil olmuş sənədlərdən aydın olur ki, "Müəllim və direktor peşəsinin tənzimlənməsi" proqramı çərçivəsində hesabat dövründə 1600 müəllimə baş müəllim, 216 müəllimə xüsusi baş müəllim, 240 müəllimə axtaran müəllim, 346 müəllimə aparıcı müəllim, 108 müəllimə isə mentor müəllim statusu verilib.

Qeyd olunub ki, hesabat dövrü ərzində (12 ay) müəllimlərin peşəkar inkişafı və karyera irəliləyişi sxemi çərçivəsində 52159 müəllim bölüşdürülmüşdü.

**Onlardan:**

- Təcrübəçi/axtaran/statusu olmayan – 4782 (9,2 %);
- Baş müəllim – 37727 (72,3 %);
- Aparıcı müəllim – 8838 (16,9 %);
- Mentor müəllim – 812 (1,6 %).

Eləcə də sxem çərçivəsində ictimai məktəblərə 2315 xüsusi müəllim bölünüb.

**Onlardan:**

- Təcrübəçi/statusu olmayan – 629 (27,2 %) müəllim;
- Baş müəllim – 1676 (72,4 %);
- Aparıcı müəllim – 10 (0,4 %).

*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb.*
***Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***

# BAKI XATİRƏLƏRİ: NAŞÜKÜR ADAMLAR



30 il yaşadığım şəhərə bağlı sərhəddən ikinci dəfə yenə göylə gəldim. Vətəndən uzaqda vətən sevgisi o qədər qiymətli olur ki, onu anlamaq üçün mütləq qərib olmalısan. Göydən yerə enəndə ətrafında hər kəsi doğma bilirsən, "əzizim yer adamları" kimi...

Hava limanından bizi mənzil başına aparmaq istəyən taksi sürücüsü 25 manatdan təklif etsə də, oğlumun taksi sifarişi etmək istədiyini görüb, "yaxşı, gəlin 10 manata mən aparım" dedi, çünki şirkət taksisi 6 manat 30 qəpik tutmuşdu. Ağsaqqal adam idi, çörək arxasıyca evindən çıxmışdı. Biz nurani əmiylə yol aldıq.

Əmi söhbətcil adama oxşayırdı, oğlumla tanışlığın ilk mərhələsindən həvəslə giley-güzara başladı. Sən demə, Azərbaycan yaşanası ölkə deyilmiş, xalq zülm çəkirmiş, dolanmaq çətinmiş. Səhər saatlarına doğru idi deyə yollar tıxaclaşırdı, əsəbləşən əmi yolu siyasətlə, siyasəti iqtisadiyyatla, onu da sosial məişətlə elə qarışdırdı ki, tanımayan, bilməyən, məntiqi analizi olmayan biri danışılanlara əsasən Azərbaycan Respublikasında çox ciddi maddi durum haqqında düşünərdi.

Bayaqdan sussam da söhbətə qarışmaq məcburiyyətində qaldım:

– Əmi, hər ay toylar olar yenə?

– Bah! Demə, bala, hələ birdən elə olur dörd dəvətnamə gəlir hər ay.

– Hamısına da gedirsiniz?

– Baho, getməmək olar? Elələri var zəng edib ağzına gələni deyər, e. Belə baxanda qınamaq da olmur, bir yerin qiyməti 60-70 manatdan başlayır. Getməyəndə cərimə toy yiyəsinə düşür.

– Odur ki, mütləq gedirsiniz?

– Mütləq. Adambaşı ən azı 100 manat da yazdırırıq.

– Əmi, ayda iki toy 400 manat, bunun təkrarlanmayan geyimi, bəzəyi ən az halda 500 manat elədi. Bu bir izafi xərc, eləmi? – Sualımın hansı istiqamətə yönələcəyindən xəbərsiz giley-güzarlı əmi bölüşmək istədiyi dərdini davam etdirdi:

– Eh bala, hələ indi mod düşüb, əsgərdən gələnə böyük kompaniya edirlər. Əşşi, bu yenə yaxşıdır. Uşaq oldu, yenə dərd yarıdır; yaş keçirirlər, yenə qəbul etmək olar. İndi uşağa hər ay "aytamamı" edirlər, e... – Əmi məni incə siyasətli sorğumuza tutmadı və indi şikayətin yönünü dəyişmişdi.

Acı gülümsəyib indi əks reaksiyaya sərnişin kimi mən keçdim:

– Bayaqdan yaşayışdan, maddiyyatdan şikayət edirsiniz... Turist daşıyırıq, özümüz o yerləri görməmişik deyirsiniz... Sizlərin mənasız yerə xərclədiyiniz pulları həmin turistlər heç vaxt xərcləməz axı! Heç bir əcnəbi 500 nəfərlik toy etmir, hər toya bir parıldayan don almır; heç bir əcnəbi 200 nəfərlik nişan etmir, uşaq gördü etmir, məcburi cehiz dəstləri almır, qızıl dəstləri reklam etmir... Davam edimmi?

Güzgüdən dayının çatılmış qaşlarını görürdüm. Bayaqdan susaraq dinləyən sərnişinin qəflətən kəskin söhbətə başlaması onu təəccübləndirmişdi deyəsən.

– Hə əmi, həmin turistlərin sadə 3-4 dəst paltarı olur, şampanla nikah kəsir, tortla yubiley edir, sonra artırdığı pula da ildə bir dəfə istirahət edir. Bəs siz ömrünüzdə heç harasa istirahətə getmisinizmi?

– Ay tövbə!

– Kimdir günahkar? Hökumət deyil. Özünüzsünüz. Azərbaycan əcnəbilərdən də gözəl maddi vəziyyətdədir. Bir baxın, nə qədər xarici maşın var. Xaricdə bunlar çox ucuzdur, onların gəliri müqabilində, bizdə isə çox bahadır, amma alırlar. Baxın, hamı bahalı geyinir, bütün marketlər, bazarlar, yarmarkalar dayanmadan işləyir, axı əgər onların bircə gün alveri getməsə iflas olarlar. Olmurlar, daha da genişlənirlər. Siz bu əhali içində mənə bircə nəfər ac-yalavac, ayaqyalın, telefonsuz adam göstərə bilərsinizmi? Bir baxın, hamısı bayaq sadaladığım xeyir-şər adamlarıdırlar. Necə deyərlər, pulu qazanırlar, amma xərcləyə bilmirlər.

Biz mənzil başına çatdıq. Taksi dayandı. Əmi susurdu. Oğlum Əminin könlünü almaq üçün hesabı verib, yarıcidi, yarızarafat dedi:

– İnciməyin, anam hökumət adamıdır. Sizin könlünüzə necə xoşdursa, elə də düşünün.

Əmi bir az hürkək dönüb mənə baxdı. Mən gülümsəyib dedim:

– Zarafat edir, adi müəlliməm. Sadəcə kənardan baxanda hər şeyi daha yaxşı görmək olur. Bunu unutmayın, içində olduğunuz xoşbətliyi görmürsünüz. Gecəni rahat yatıb, səhərə plan qurmaq gözəlliyi ilə indicə başıma bomba düşəcək və ümidsiz səhəri müqayisə edin.

Biz taksidən aralandıq, oğlum gözaltı geri baxıb, – Kişi hələ fikirli bizə baxır, – dedi.

Mən:

– Görəsən həqiqəti qəbul etdirə bildimmi?

Həmişə fərqli düşünən oğlum çox ciddi dedi:

– Nahaq kişinin dünyasına qarışıqlıq saldın, elə adamlar var ki, narazılıq onun həyat tərzi olur. İndi bilmir özü olsun, yoxsa eşitdiyi.

Eh, sən demə bu hələ proloq idi...

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# "KURTLAR VADİSİ"



Ötən gün dostlarla oturmuşduq, çay içə-içə söhbət edirdik. Birdən söz düşdü o məşhur "Kurtlar vadisi"ndən. Bir ara hamının uzun palto geyinən vaxtlarından danışıram. Elə bil paltonun üstündə Poladın adı yazılıb, mağazaya girən Poladın paltosundan, Poladın pencəyindən ver deyirdi. Yadımdadır, o illərdə hamı uzun palto geyinib "Cendere" musiqisi fonu altında gəzirdi. Telefonlarında da "Cendere" çalırdı. Nə isə, bunlar Poladı elə tərifləyirlər ki, güya Türkiyədə Polad, yəni Necati Şaşmazdan başqa aktyor yoxdur, hələ biri də "elə bir aktyor bir də Türkiyəyə gəlməyəcək" deyib dururdu. Bu adamı elə göylərə qaldırırdılar ki, adam doğrudan da Türkiyənin ən brend aktyorunun ancaq Necati Şaşmaz olduğuna inanırdı. Mən də orada oturub nə var, nə yox, qarnımı tutub gülmüşəm. Hələ biri də qalxıb deyir ki, "Kurtlar vadisi" serial deyil, bir əfsanədir. O seriala, Polad Ələmdara baxıb filmin təsirinə düşənlər, pencəyini çiyninə atıb gəzənlər, uşaqlarına Polad adını qoyanlar, maşınlarının nömrəsinə "Polad" yazdıranlar, kreditə girib Poladın sürdüyü "Range Rover"dən almağa çalışanlar da var idi o zamanlar. Hələ bizimkilərdən bəziləri serialdan təsirlənib iki sözünün arasına yersiz aforizmlər qatanda insanın əti tökülürdü, vallah. Bir sözlə, serialla yaşayan bəzi adamlar elə bilir real həyatda da o pafoslu, yersiz aforizmlərlə nəsə deməyə çalışsalar ciddi qəbul olunacaqlar. Amma Əhməd İmamquliyevin sözü olmasın, o döy! Bir az da özünüz olun.

Baş roldakı adama aktyor demək aktyorluq sənətinə hörmətsizlik olar. Onsuz da serialda öz səsi ilə danışmırdı, dublyajla birtəhər yola verirdilər. Siz də onu bu qədər şişirdib az qala Marlon Brando səviyyəsinə qaldırırsınız. Marlon Brandonu məşhur mafiya filmi "Xaç atası" filmindən tanıyırıq. Bizim "Kurtlar vadisi" də mafiya serialı olduğuna görə bu müqayisəni etdim.

Sonra bakılılar bu serialdan ruhlanıb "Küləklər şəhəri" adlı bir "möhtəşəm" serial çəkdilər. Serial yox, qohum-əqrəba toplaşması. Kim var idi yığdılar – xalaoğlu, mamaoğlu, bibiqızı, əmiuşağı, qonşu uşaqları, bir sözlə, aktyor olmayan nə qədər adam varsa kameranın qabağına düzdülər. Özümü zorla sıxıb 4 dəqiqəsinə baxdım bu "məşhur" serialın. Həmin serialdan çox qısa dialoqu yazıram:

Mafiya başçısı:

– Nəsə eləməliyik, ya yox?

(15 saniyə sonra mafiya üzvü cavab verir).

Rəsul:

– Eləməliyik!

Mafiya başçısı (gülərək):

– Nə eləməliyik, Rəsul?

Rəsul:

– Nəsə eləməliyik dəəə...

Mafiya başçısı:

– Məsələn?

Rəsul:

– Bariqaları "nakazat" eləməliyik.

Mafiya başçısı (gülərək):

– Nə eləmək lazımdır?

Rəsul:

– Bariqaları "nakazat" eləmək lazımdır.

Ətiniz tökülsün yaxşımı. Ömrümdən 4 il getdi, eyni sözləri dəfələrcə nə qədər təkrarlamaq olar. Heyif o kameranın linzalarına. Bir sözlə, özümdən, gözlərimdən, qulaqlarımdan, telefonumdan üzür istəyirəm.

Nə isə, mövzudan çıxmayaq, söhbət "Kurtlar vadisi"ndən gedir. Serialda bir-iki səhnə var, illər sonra real həyatda ona bənzər hadisələr baş verəndə başlayırlar: "Aha, gördünüzmü? "Kurtlar vadisi" hər şeyi əvvəlcədən bilirdi, ona görə belə çəkilmişdi!" Az qala "Simpsonlar" kimi öncədən hadisələri "görən" cizgi filmi səviyyəsinə qaldırırlar "Kurtlar vadisi"ni. Guya Türkiyədə baş verən bütün olayları illər əvvəl bu serial göstəribmiş. Yaxşı da, bəsdirin, vallah, bezdirdiniz. Günümüzdə o qədər siyasi ekspertlər var, bəzən elə analizlər edirlər, həmin il dedikləri hadisələr baş verir. Polad Ələmdarı isə bu qədər şişirtməyə heç ehtiyac yoxdur. Nə deyim, vallah. Amma bu mənim subyektiv fikrimdir, Necati Şaşmaz nə aktyordur, nə də "Kurtlar vadisi"ni bu qədər ilahiləşdirməyə ehtiyac var.

Nə isə, gedim "Dantenin yubileyi"nə baxım. Mən ölüm, Kəbirlinski, çığır-bağırla obraz yaratmaq olmaz.

**Binəli İSLAMOĞLU**
*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*



# BORÇALI TÜRKMƏNLƏRİNİN TARİXİ

Qafqaz qədim dövrlərdən demoqrafik strukturu ilə əsrarəngiz idi. Burada bir çox millətlər yaşayır, bir-biri ilə aktiv mədəni, siyasi, ticari əlaqələr qururdu. Qafqazın incisi olan Gürcüstan da bir çox millətin ortaq vətəni idi. Bu millətlərdən biri də Borçalı türkləridir. Borçalı tarixi illərdir ki, ixtilaflı olaraq hər tarixçiyə görə dəyişir. Bəzi alimlər Borçalıda türklərin avtoxton olduğunu, bəziləri isə buraya necə gəldiklərini yazır. Biz isə mənbələrə əsaslanan obyektiv bir məqalə hazırlamağa çalışacağıq.

Borçalı türklərinin tarixini öyrənmək üçün gürcü mənbələrinə üz tutmalıyıq. Türk sözü keçən ən qədim gürcü mənbəsi "Kartlis tsxovreba"dır. Bu əsər müxtəlif dövrlərdə, müxtəlif müəlliflər tərəfindən yazılıb. Mənbənin elə ilk hissələrində Böyük İsgəndərin Şərq səfərindən bəhs olunur. Mənbəyə əsasən, İsgəndər Qafqaza gəldi və gələrkən indiki Gürcüstanın Cənub-Qərbində, Çoroh çayı yaxınlığında bun türkləri ilə qarşılaşdı. Sonra isə İsgəndərin Kartli çarlığına müdaxilələrindən bəhs olunur. Mənbənin bu hissəsi olduqca ixtilaflıdır. Mənbə Kartli çarlığının qurulmasını da Makedoniyalı İsgəndərə bağlayır, amma bunu əksər alimlər qəbul etmir. Bu alimlərdən biri də Tbilisi Dövlət Universitetinin professoru və Gürcüstan tarixi kafedrasının sədri Tedo Dunduadır. Onun fikrincə, bu məlumat tamamilə əfsanədir. Makedoniyalı İsgəndər heç vaxt Qafqaza gəlməmişdir, onun yolu Xəzər dənizinin cənubundan olmuşdur. İsgəndərin Qafqaza gəlməsi haqqında başqa heç bir mənbədə məlumat yoxdur. Beləliklə, bun türkləri də ixtilaflı məsələ olaraq qalır. Çünki başqa heç bir mənbədə onlar haqqında məlumat tapılmır və sonrakı dövrlərdə də onların siyasi və ya mədəni mövqeyi haqqında heç yerdə bəhs olunmur. T.Dundua İsgəndərin Qafqaz səfəri kimi, bun türkləri məsələsini də əsassız və əfsanə sayır.

Obyektiv tərəfdən yanaşsaq, əgər bu məlumat həqiqətdirsə, onlar akınçı tayfalar ola bilərdi, yerləşib burada yaşayanlar deyil. Çünkü onların burada oturaq həyat sürən xalq olduğunu sübut etmək imkansızdır. Əgər onlar o dövrdə burada yaşayırdısa, bəs sonra hara getdilər?

"Kartlis tsxovreba"nın bu ixtilaflı məlumatından sonra 11-ci əsrə qədər Gürcüstanda türk kimliyinə rast gəlinmir. Mənbələrdə tam təsdiqi olan türk axınları Böyük Səlcuqlu dövləti ilə, konkret olaraq Sultan Alparslan ilə başlayır. İlk dəfə Səlcuqlular 1064-cü ildə Gürcüstana ayaq basırlar. Sultan Alparslanın əsas məqsədi Ani qalasını tutmaq idi və buna görə də Gürcüstanın strateji əhəmiyyətinə önəm verirdi. Səlcuqlular ilk Axalkalaki və Dmanisi qalalarını ələ keçirir. Sultan Alparslan dönəmində buraya türk əhali yerləşmir. Türklərin bura ailələri, sürüləri, çadırları ilə gəlməsi 1080-ci ildən başlayır. Bu hadisə "Kartlis tsxovreba"da "didi turkoba", yəni "böyük türklük" adı ilə təsvir olunur. Mənbəyə görə, türklər yazda sürüləri ilə gəlib, payızda isə qayıdırdılar. Amma bir şeyi nəzərə almalıyıq ki, Dmanis kimi bəzi qalalar türklərin əlində idi. Tiflisdə Ərəb İslam Əmirliyi var idi. Yaylaqlara gələn türklər payızda qayıtsa da, axı o qalalarda qalan türklər getmirdi.

Səlcuqlulara qarşı mübarizəni Qurucu David (1089-1125) başladır və 1121-ci ildə Didqoridə Səlcuqlu ordusunu məğlub edir. Bundan əvvəl isə David Gürcüstana şimaldan qıpçaq türkləri gətirib yerləşdirir. Özü isə qıpçaq xanının qızı ilə evlənir. Mənbələr 40 min qıpçaq ailəsinin gəldiyini, onların sərhədyanı ərazilərə yerləşdiyini və hər ailədən bir əsgər gürcü ordusuna qatıldığını deyir. Qurucu David məhz qıpçaqların köməyi ilə səlcuqluları məğlub edir. Qıpçaqlar xristianlığı qəbul edir və gürcü cəmiyyətinə çox tez inteqrasiya olurlar. Maraqlıdır ki, mənbələr bu qıpçaqların sonrakı aqibəti haqqında heç nə demir. Amma gürcü mənbələri bunu nə qədər dansa da, aşkardır ki, qıpçaq türkləri Samtsxe-Cavaxeti bölgəsində qaldı, orada Samtsxe Atabəyliyini qurdu və indiki Axıska türklərinin babaları idi. Ancaq burada bəzi tarixçilər Borçalıda qıpçaqlarla oğuzların qarışdığını iddia edirlər. Bu fərziyyə tamamilə yanlışdır. Qıpçaqlar oğuzlara qarşı savaşırdı, xristianlığı qəbul etmişdilər (Osmanlı dönəmində müsəlman oldular) və səlcuqlu oğuzlarını gürcülər yavaş-yavaş cənubi Gürcüstandan çıxardı, qıpçaqlar isə gürcülərlə qaynayıb qarışmışdı. 15-ci əsrdə Bütöv Gürcüstandan ayrılaraq Samtsxe Atabəyliyini qurdular, ancaq onlarda türklük əlamətləri çox az qalmışdı, gürcüləşmişdilər. Qurucu David 1122-ci ildə Tiflisi aldıqda əhalinin çoxusu müsəlman idi. David cümə namazlarına qatılardı. Gürcülərə 5 dirhəm, müsəlmanlara isə 3 dirhəm vergi təyin etmişdi. Pul vahidinin üzərinə sultanın adını yazdırardı. Bu da Qurucu Davidin müsəlmanlara və türklərə toxunmadığının dəlilidir.

Çariça Tamara dövründə türklərin dövlət işlərində necə aktiv olduğunu mənbələr bizə göstərir. Qıpçaq türkü olan Qutlu Arslan Tamaraya qarşı üsyan qaldırır, yeni dövlət sarayı tikilməsini və orada özünün dövlət qərarlarında iştirak etməsini tələb edir. Unutmamalıyıq ki, söhbət xristian qıpçaqlardan gedir. Tamara dövründə indiki Azərbaycanın böyük hissəsi də gürcülərin əlindədir və tam oğuz əhali məskunlaşıb. Həmçinin Loredə (Dağ Borçalısı) və Dmanisi kimi qalalarda oğuzlar var, amma çox az.

Rusudan dövründə Gürcüstana Cəlaləddin Xarəzmşahın axınları başlayır. Xarəzmşahlar Tiflisi tutur. Aradan çox keçməmiş moğollar, Cebe və Subutayın orduları Gürcüstana gəlir. Moğolların işğalı dönəmində oğuzların taleyi haqqında mənbələr heç nə yazmır. Teymur Ləngin 8 yürüşünün heç birində də Gürcüstanda oğuzlardan bəhs olunmur. Ola bilər ki, moğol basqılarında oğuzlar buranı tərk etdi. Çünkü moğollar Gürcüstanı yaxıb-yandırmışdı. Gürcü əhali belə cənubi Gürcüstanı tərk edib dağlara çəkilmişdi.

Borçalıya oğuz axınının ikinci mərhələsi Ağqoyunlu dövləti ilə başlayır. Uzun Həsən gürcüləri məğlub etdikdən sonra 1 il içərisində vəfat edir və onun siyasətini oğlu Yaqub xan davam etdirir. Borçalının Kür yanı bölgələrinə Yaqub xan türkmən tayfaları yerləşdirir. Gürcü mənbələri Yaqub xanın ölümündən sonra 2-ci Konstantinin (1478-1505) türkmən tayfalarını tamamilə qovduğunu yazır. Ancaq aradan heç 20 il keçməmiş yeni böyük güc doğur – Səfəvilər. Şah İsmayıl gürcüləri məğlub edir, Tiflisi tutur, məscid tikdirir və türkmən axınlarının üçüncü mərhələsi başlayır.

Mənim subyektiv fikrimcə, Səfəvi dövründə Şah İsmayıl gürcüləri məğlub edərkən elə 2-ci Konstantinin qovduğu türkmənlər fürsətdən istifadə edib geri, Gürcüstana gəlirlər. Çünkü bilirik ki, Səfəvi dövlətinin rəsmi məzhəbi şiəlik idi və "şiələşdirmə" siyasəti aparırdı. Bu siyasət Səfəvi dövlətinin Şimalında aparıla bilmədi, əsasən indiki Azərbaycanın mərkəzi və cənubunda və İranda aparılırdı. Borçalıda yaşayan əhalinin 60 faizi sünni məzhəbinə mənsubdur. Bu da onu göstərir ki, bu türkmənlər elə Yaqub xanın gətirdiyi türkmənlərdir. Əgər onları Şah İsmayıl və ya Şah Təhmasib yerləşdirmiş olsaydı mütləq şiə məzhəbli olardılar. Qalan 40 faiz şiə məzhəbinə mənsub olan türkmənləri isə Şah Abbas yerləşdirir. Şah Abbasa qədər Gürcüstandakı türkmənlərin hamısı sünni məzhəbli olur və sırf fərqlənmək, sünni olduqlarını bildirmək üçün başlarına qızılbaş papağı deyil, sadə qara papaq taxırlar. "Qarapapaq" termini də elə buradan gəlir. Bu gün yanlış olaraq qarapapaq oğuzun bir boyudur və ya tayfadır kimi ifadələr işlədənlər var. Bu tamamilə absurddur və yalandır. Qarapapaq deyə bir boy yoxdur.

Şah Abbasa qədər gələn türkmənlərə gürcü mənbələri "თურქმანთა ელი" yəni "Türkmən eli" deyir. Amma Şah Abbasın gətirdiyi türkmənlərə "ბორჩალოს ელი" yəni "Borçalı eli" ifadəsini işlədir. Borçalı termininin elə buradan yarandığını görürük. Şah Abbasa qədər türkmənlər Kür və Xram kənarında yerləşmişdilər. Kür yanında böyük Dəmirçihasanlı mahalı (indiki Rustavi yaxınlığında), Xram yaxınlığında isə Baydar mahalı var idi. Türkmənlər komplekt yaşayırdı və bu obaların əhalisi dövrə görə həddindən artıq çox idi. Şah Abbas dönəmində artıq Soğanlıq, Sarvan (indiki Marneuli, Qızılhacılı, Gorarxı, Candar və s.), Faxralı, Muğanlı və s. kimi kəndlər formalaşdı və Şah Abbas buraya yeni türkmən tayfaları köçürdü. Borçalıdakı şiə-sünni fərqi də məhz buradandır. Şah Abbasdan əvvəlkilər sünni məzhəbinə, Şah Abbasla gələnlər isə şiə məzhəbinə mənsub idilər. Şah Abbas dövründən sonra artıq Borçalı tam bir türkmən yurdu olmuşdu. O gündən bu günə elə Borçalı termini bu bölgənin adı olaraq qaldı.

Nadir şah dövründə artıq Borçalı Gəncə bəylərbəyliyinə daxil olan bir türkmən mahalı idi. Nadir şah Borçalı və Kaxetidə gürcü çarı Teymurazın və Ereklenin hakimiyyətini tanıdıqdan sonra Borçalı Kartli çarlığına daxil oldu və gürcülərlə ortaq mövqe tutmağa, ortaq siyasət yeritməyə, ortaq savaşlar etməyə başladı. Dəmirçihasanlı türkmənləri yaxın tarixdə indiki Borçalının fərqli bölgələrinə dağılaraq ayrı-ayrı kəndlər qurdular (Məsələn: Dmanisin və Bolnisin bəzi kəndləri, Kürüstü kəndlər, Qabal və s.).

Bəli, məqalədə Borçalıya türkmənlərin necə yerləşdiyini aydınlaşdırdıq. Borçalı türklərinin milli kimlik məsələsində də yanlışlara yol verməməliyik. Bu gün Borçalını qıpçaq adlandıranlar, ayrı bir boy adlandıranlar heç bir sübuta əsaslanmadan milləti parçalayırlar. Borçalılar oğuzdur, türkməndir, dil və mədəniyyət nöqteyinəzərindən Azərcaycan oğuz qrupuna daxildir. Unutmayaq ki, hamımızın bir ortaq adı var – türk. Bundan başqa iddia yersizdir və əsassızdır.

Biz Borçalıya türkmənlərin yerləşməsi haqqında danışdıq, Borçalı türkmənlərinin Gürcüstan tarixindəki rolu isə başqa bir mövzudur və çox maraqlıdır. Xüsusilə 2-ci Erekle dövründə borçalıların mövqeyi çox önəmlidir. Bu haqda başqa yazıda danışacağıq.

**Mənbələr:**

"ქართლის ცხოვრება" ("Kartlis tsxovreba");

მარიამ ლორთქიფანიძე – "საქართველოს ისტორია" (Mariam Lordkipanidze – "Gürcüstan tarixi");

ალექსანდრე ბოშიშვილი – "ქვემო ქართლის ეთნიკური და დემოგრაფიული სურათი, ისტორია და თანამედროვე მდგომარეობა" (Aleksandre Boşişvili – "Kvemo Kartlinin etnik və demoqrafik təsviri, tarixi və müasir durumu");

"Səlcuqnamə".

**Cəlal YADİGARLI**

*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 3-cü kurs tələbəsi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

ALEKSANDRE ORBELİANİ



*(əvvəli ötən sayda)*

Çar İrakli dərhal əyanları və övladlarını çağırdı, onların yanında yurd söhbəti etdi. Odur ki, onların hamısı and içərək dedilər:

– “Biz öləcəyik və Ağa Məhəmməd şah Qacardan heyif alacağıq”.

Çar İrakli onların qeyrətini görəndə dedi:

– “Bunu sübut etmək üçün bütün Gürcüstan camaatı öz arvad-uşaqları ilə bura – Tiflis şəhərinə gəlməliyik. Təkcə kişilər deyil, qadınlar da silaha sarılmalıdır. Nə ki bu şəhərin başına gətirdilər, qana-qan alınacaq”.

Bundan ötrü də hamı and içdi və hazırlığa başladılar.

Çoxu ailəliklə şəhərə gəldi, çarın ailəsi də Telavidən gəldi. Bu vaxtlar müjdəçi çar İraklinin yanında idi: Ağa Məhəmməd şah Qacarı Qarabağda öldürüblər, – dedi.

Bu xəbərin müjdəçisi Baydar sultanı Almaz xan idi, özü bunu nəql etdi:

– “Qazaxda idim. Bu xəbəri ilk dəfə orada eşitdim. Səhər yeni açılırdı. Elə həmin an ata mindim. Yaxşı bir atım var idi. Onu dördnala çaparaq şəhərə gəldim, nahar yeməyi zamanı özümü hökmdara yetirdim. Bu zaman çar yanmış, xarabaya çevrilmiş sarayının yerində dayanıb öz böyük əyanları ilə nəsə danışırdı. Atın yüyənini çəkdim və çarı çağırdım: Hökmdara salamlar olsun. Təbrik edirəm, – deyərək atdan düşdüm. Çar mənə baxdı, tanıdı və tezcə yanıma gələrək, – Nə xəbər var? – deyə soruşdu. Ağa Məhəmməd şah Qacar Qarabağda qətlə yetirilmişdir, – dedim. Hökmdar çox xoşhal oldu, başqları isə narahat oldular. Bu da bizim bədbəxtliyimizdir ki, Ağa Məhəmməd şah Qacarın öhdəsindən gələ bilmədik, – dedilər...”

Tatardan bu xəbəri eşitmək elə xoşuma gəldi, məni elə xoşhal etdi ki, ona hörmət əlaməti olaraq onun müjdəsini belə incəliklə yazdım. Həmin vaxtlar İraklinin əlaltıları olan tatarlar da çox sədaqətli idilər. Belə ki, həmin vaxtlar bəzi ermənilərin və bəzi gürcü tavadlarının üzündən Gürcüstan məhv oldu”...

Çar İrakli dərhal çariçanın yanına müjdəçi göndərdi ki, Ağa Məhəmməd şah Qacarı Qarabağda qətlə yetiriblər. Onu da dedi ki, heç də gəlmə, mən burada işlərimi bitirəndə tezliklə yanına gələcəyəm. Bundan sonra bütün kilsələrdə bayram paraklisi keçirtdirdi, Tanrıya dualar oxundu, böyük şükürlər edildi. Gürcüstan üçün çox yaxşı oldu ki, Ağa Məhəmməd şah Qacarı öldürdülər. Öldürməsəydilər daha dəhşətli xəyanətkarlıqlar hazırlanmışdı. Bütün Gürcüstan viran edilməli idi. Ağa Məhəmməd şah Qacar böyük şah Abbas kimi bu niyyətlə gəlirdi.

Ağa Məhəmməd şah Qacardan sonra çar İrakli Gəncə qalasını alanda Gəncə xanı Cavad xanı ələ keçirdi (O, Ağa Məhəmməd şah Qacarın qohumu və dostu idi. Gürcüstana onu özü gətirdi) və axırda onu özünə çəkdi. O, Gürcüstanın son dəfə viran edildiyini ona nəql etdi; Səbəbi kim idisə, onu da və çoxlu başqa şeyləri də danışdı... Bunları gələcək üçün saxlayaq. Lakin o məxvi xəbərləri eşidəndən sonra çar İraklinin üzü daha gülmədi, hətta kədərləndi.

Gənclik çağlarımda, hələ nikaha girməmişəm, təzəcə nişanlanmışam, həmin vaxtlar bir axşam qayınatamın kürəkəninin bacısının əri tavad Eliazar Palavandişvilinin (çar Georginin katibinin) yanında mənim qayınatamın özü David Barataşvili, bibimin əri Niniya Melikişvili, katalikos Antonun naziri, aznaur Nikoloz Eliozişvili və çar İraklinin, çar Georginin və onların ailələrinin həkimbaşı aznaur İvane Karaevişvili və mən birlikdə olduq.

Əvvəllər hər halda belə idi, itlər bir araya gələndə, kütə gələndə tamamilə it əhvalatını danışırdılar.

İllah da ki, İraklinin, onun adi əhvalatını ortaya atdılar və guya onun yaxşı əhvalatını elə köks ötürərək danışırdılar, doğrudan da ağır idi.

Sonra Niniya kədərlə dedi: – “Mən düzünü deyəcəyəm. Əgər çar İraklinin müsibəti baş verməsəydi, yəni Ağa Məhəmməd şah Qacarın bu şəhəri alması baş verməsəydi Gürcüstan camaatı qoruyub saxlamaq üçün İraklini müqəddəs tikələrə bölərdilər”.

Katib Eliazarın cavabı: – “Mənim qardaşım Niniya, mən hər şeyi ətraflı bilirəm və daha gizlətməyəcəyəm, burada elə adam yoxdur ki, ondan gizli olsun. Çar İrakliyə kim nə edə bilərdi? Lakin xəyanətkarlığa nə çarə”... Ağzını açıb nələr, nələr dedi...

Sonra həkimbaşı İvane: – “Mən həmişə çar İraklinin və şahzadələrin yanında olmuşam. Bunu siz də yaxşı bilirsiniz və yaxşı xatırlayırsınız”. Çox danışdı və bunu da əlavə etdi: “Bunu burada deyirəm, yoxsa başqa yerdə bu barədə ağzımı mumlayardım”.

Qayınatam: – “Güc-bəla bir yer rastımıza çıxdı, hər şeyi doğru-düzgün deyəcəyik. Siz də yaxşı bilirsiniz ki, mən uşaqlıqdan şahzadə Davidin yanında olmuşam və ona görə də onların əhvalatını bilməliyəm”. Bu da çox şey dedi.

Sonda nazir Nikoloz dedi: – “Düzdür, biz belə mehriban və etibarlı söhbətə çox az rast gəlirik. Mən katolikos Antonun yetirməsiyəm, bunu siz də bilirsiniz, həm də Rusiyaya gedəndə ona qoşuldum və şəhərdən də çıxanda, bazar ertəsinin axşamı, Ağa Məhəmməd şah Qacarın zamanında mən çariçanın və katolikosun önü ilə piyada getdim. At tapa bilmədim, elə tələsik getdilər. Şahzadə, onların anası da oraya atla (əlini çiynimə qoydu) buyurmuşdu, öz qardaşı katolikos Antonun yanında. Bəli, çar İraklinin və katolikos Antonun yanında çox söhbətlərində, onların məxvi danışıqlarında iştirak etmişəm. Onlar mənə beləcə etibar edirdilər. Onların söhbəti yaxşı yadımdadır”. Bununla başladı və daha çox danışdı.

Ağa Məhəmməd şah Qacarın əhvalatını yalnız onlardan eşitməmişəm. Nə qədərini də yenə başqalarından duymuşam (bəziləri bu əsərdə də görünür), belə ki, yarısını da yazmamışam bu əsərdə. Artırmaq lazım deyil, bu da kifayətdir.

O it əhvalatını gənclik vaxtlarımda xatırlamağı çox sevirdim. O itlər də mənim yanımda gizlətmirdilər – nə mənim gənclik çağlarımda, nə də kişilik dövrümdə. Yanlarında oturdardılar və mənə deyərdilər: Heç kimə heç nə demə. Bəlkə bunu oxuyanlar deyəcəklər: Niyə gizlədirdilər? – Niyə gizlədirdilər, əvvəl onu izah edək.

*(son)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ახალი ბილიკი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN 2025-Cİ İL № 10 (227)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## AZƏRBAYCAN BÖLMƏLƏRİ OLAN MƏKTƏBLƏR MÜƏYYƏN EDİLİB



"Ümumtəhsil müəssisələrinin ictimai hüquqi şəxs kimi təsis edilməsi və ictimai məktəblərin nizamnaməsinin təsdiqlənməsi haqqında" sərəncamda dəyişiklik edilib. Dəyişikliyə əsasən, rus, erməni və Azərbaycan dilində bölmələri olan məktəblər müəyyən edilib. Sərəncama əsasən, bu məktəblər aşağıdakılardır:

a) Axaltsixe şəhər Təhsil Resurs Mərkəzinin tabeçiliyində olan Axaltsixe şəhər 3 saylı ictimai məktəbi və Axaltsixe bələdiyyəsinin Didi Pamaci kənd ictimai məktəbində təhsil gürcü və erməni bölmələrində həyata keçirilsin;

b) Laqodexi şəhər Təhsil Resurs Mərkəzinin tabeçiliyində olan Laqodexi bələdiyyəsinin Davitiani kənd ictimai məktəbində təhsil prosesi gürcü və rus bölmələrində həyata keçirilsin;

c) Bolnisi şəhər Təhsil Resurs Mərkəzinin tabeçiliyində olan Bolnisi bələdiyyəsinin Qeta kənd ictimai məktəbində, Bolnisi bələdiyyəsinin Darbaz, Dzveli Kveşi, Cavşaniani kənd ictimai məktəblərində təhsil prosesi gürcü və Azərbaycan bölmələrində həyata keçirilsin;

ç) Dmanisi şəhər Təhsil Resurs Mərkəzinin tabeçiliyində olan Dmanisi bələdiyyəsinin Yuxarı Qarabulaq kənd ictimai məktəbində təhsil prosesi gürcü və Azərbaycan bölmələrində həyata keçirilsin;

d) Tsalka şəhər Təhsil Resurs Mərkəzinin tabeçiliyində olan Tsalka bələdiyyəsinin Aşkali, Qızılkilsə, Daşbaş kənd ictimai məktəblərində təhsil prosesi gürcü və erməni bölmələrində həyata keçirilsin.

*Mənbə: etaloni.ge*

## YENİDƏN NƏŞR OLUNAN "KÖRÜK" ƏDƏBİYYAT VƏ SƏNƏT DƏRGİSİNİN TƏQDİMATI OLUB




İyunun 5-də Tbilisidə yerləşən M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Mərkəzində Gürcüstan Yazıçılar Birliyinin (GYB) Azərbaycan bölməsinin dərc etdirdiyi "Körük" adlı ədəbiyyat və sənət jurnalının təqdimatı olub. Uzun fasilədən sonra yenidən nəşr olunan jurnalın təqdimat mərasimində GYB-nin Azərbaycan bölməsinin rəhbəri, derginin baş redaktoru Allahverdi Təkləli, türkiyəli şair Aytekin Karapaça, azərbaycanlı ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyinin (TİKA) maliyyə dəstəyi ilə işıq üzü görmüş nəşrdə Gürcüstanın azərbaycanlı şair və yazıçılarının əsərləri ilə yanaşı, müasir Azərbaycan, gürcü və dünya ədəbiyyatının nümunələri də yer alıb.

A.Təkləli deyib ki, "Körük" jurnalının məqsədi Gürcüstanın azərbaycanlı icmasının ədəbi irsini qoruyub saxlamaq, təbliğ etmək və yeni qələm sahiblərini cəmiyyətə tanıtmaqdır. O, jurnalın yenidən nəşr olunmasına göstərdiyi maddi dəstəyə görə TİKA-ya təşəkkürünü bildirib, jurnalın iki ayda bir dəfə nəşr olunacağını qeyd edib.

Sonda tədbir bədii hissə ilə davam edib, aşıq Nargilə Mehtiyeva saz havaları ifa edib, müxtəlif şeir nümunələri söylənilib.

## GÜRCÜSTANDAKI AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİN MÜƏLLİMLƏRİNİN İKİNCİ QURULTAYI KEÇİRİLƏCƏK



Gürcüstanın paytaxtı Tbilisidə iyunun 28-də Azərbaycandilli Məktəblərin Müəllimlərinin II Qurultayı keçiriləcək. Bu barədə "Maarif" təşkilatının direktoru Aygül İsayeva məlumat verib.

O qeyd edib ki, qurultayın məqsədi dövlət qurumlarının diqqətinə azərbaycandilli məktəblərdə yaşanan problemləri və həlli yollarını çatdırmaq, fikir mübadiləsi aparmaq və perspektivləri müəyyən etməkdir.

Panel müzakirələrdə məruzəçilər kadr çatışmazlığı, ana dili, dövlət dili, ikidilli (bilinqual) təhsil sistemi, inklüziv təhsil, dərsliklərdəki problemlər, infrastruktur məsələləri və s. mövzulara toxunacaqlar. Qurultayda azərbaycandilli məktəblərdə dərs deyən müəllimlərlə yanaşı, dövlət qurumlarının, diplomatik korpusların və təhsil sahəsində fəaliyyət göstərən təşkilatların nümayəndələri də iştirak edəcəklər.

Qeyd edək ki, Azərbaycandilli Məktəblərin Müəllimlərinin I Qurultayı 2023-cü ilin iyun ayında keçirilib.

## GÜRCÜSTAN İQTİSADİYYATINA QOYULAN XARİCİ İNVESTİSİYALARIN HƏCMİ 7,7 FAİZ AZALIB



Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2025-ci ilin birinci rübündə Gürcüstan iqtisadiyyatına 179,4 milyon dollar xarici investisiya qoyulub ki, bu da 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə 7,7 faiz azdır.

Məlumatda bildirilir ki, investisiyaların azalmasına səhm kapitalı və borc öhdəlikləri təsir edib. Statistikaya görə, 2025-ci ilin yanvar-mart aylarında investisiyaların həcmi 34,6 faiz, təkrar investisiyaların həcmi isə 150 milyon dollar təşkil edib.

Cari ilin yanvar-mart aylarında Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələrin sırasında Çex Respublikası, ABŞ, Türkiyə, Virciniya və Azərbaycan qərarlaşıb.

Məlumata görə, hesabat dövründə Gürcüstanda investisiya üçün ən populyar sektorlar enerji, informasiya və rabitə, istehsal, tikinti və nəqliyyat sektorları olub.

## DÜNYA BANKININ PROQNOZUNDA GÜRCÜSTANIN İQTİSADİ ARTIMI 5,5 FAİZ GÖSTƏRİLİB

Dünya Bankı Gürcüstanın 2025-ci ildə iqtisadi artımı ilə bağlı proqnozunu 6 faizdən 5,5 faizə endirib. Bu barədə Dünya Bankının yenilənmiş proqnozunda məlumat verilib.

Beynəlxalq maliyyə institutunun hesablamalarına görə, bütövlükdə Cənubi Qafqazda iqtisadi artım 2025-ci ildə 3,6 faizə, 2026-cı ildə isə 3,4 faizə qədər azalacaq.

Dünya Bankının proqnozlarına görə, Ermənistan və Gürcüstan ilə bağlı iqtisadi artımın azalması daxili tələbin və təkrar ixracın azalması ilə əlaqəli olacaq.

Bank Azərbaycan ÜDM-inin artımını 2025-ci ildə 2,6 faiz, 2026-cı ildə 2,4 faiz proqnozlaşdırır.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.